# BAYRAM KONSEPTİNİN ETNOKULTUROLOJİ MAHİYYƏTİ

## (Professor C.Qasımovun yaradıcılığı əsasında)

***Məsələnin qoyuluşu:*** *Bayram konseptinin etnokulturoloji mahiyyəti haqqında dəyərli fikirlərə Novruz bayramı haqqında tədqiqatlarda geniş şəkildə rast gəlinir. Bu cəhətdən prof. Cəlal Qasımovun fikirləri diqqəti xüsusi cəlb edir.*

***İşin məqsədi:*** *Tədqiqatın aparılmasında əsas məqsəd bayram konseptinin etnokulturoloji mahiyyətini prof. Cəlal Qasımovun tədqiqatları əsasında araşdırmaqdır.*

Novruz bayramının etnokulturoloji semantikası, o cümlədən etnopsixoloji mahiyyəti haqqında maraqlı fikirlərə prof. C.Qasımovun Novruz bayramının sovet dönəmində repressiyasından bəhs edən məqaləsində rast gəlirik. Müəllif həmin repressiyalar haqqında yazır: "XX əsrin əvvəllərində – 30-cu illər stalinizm repressiyaları dövründə milli mədəniyyətimiz bütövlükdə repressiyalara, bir çox hallarda məhvə məruz qaldığı kimi, bu qanlı təqiblər Novruz bayramından da yan keçmədi. Həmin dövrdə "Novruz" bayramının keçirilməsi qadağan edildi. Lakin bu bayrama islam dininin qalığı kimi baxan bolşevizmin bütün cəhdlərinə baxmayaraq, onu xalqın yaddaşından silə bilmədi. Öz tarixi ənənələrinə sadiq qalan xalq bu mərasimin meydanlarda olmasa da, mənzillərdə keçirilməsinə nail oldu" [2, s. 14].

Prof. C.Qasımovun tarixi faktlara və sənədlərə əsaslanan bu fikri Novruz bayramı ilə bağlı bəzi "əks fikirlərin" üzərinə də işıq salır. Çünki biz tez-tez belə məlumatlarla qarşılaşırıq ki, sovet hakimiyyəti zamanında Novruz bayramı heç bir təqibə məruz qalmamışdır. Bu zaman əksəriyyət belə bir fakta istinad edir ki, "biz uşaq vaxtı öz kəndimizdə bu bayramı necə lazımdır keçirirdik. Tonqal qalayırdıq, od üstündən tullanırdıq, yumurta döyüşdürürdük, cürbəcür oyunlar oynayırdıq və s.". Yəni sovet hökuməti bayramın keçirilməsinə heç bir yasaq, qadağa-filan qoymamışdır. Əlbəttə, bunu deyənlərin hamısı öz bayram xatirələrinə istinad edirlər. Lakin onlar bu zaman sovet hökumətinin Novruz bayramı ilə bağlı nəyi qadağan etdiyini bilmir, yaxud nəzərə almırlar. C.Qasımovun dediyi kimi, sovet hökuməti Novruz bayramını meydanlardan evlərə, mənzillərə sıxışdırdı. Onu dövlətin qeyd etdiyi rəsmi-siyasi bayram statusundan çıxarıb, məişət səviyyəsində qeyd olunan bayrama çevirdi. Məsələnin bütün mahiyyəti bununla bağlıdır. Sovet hökuməti Novruzu bir bayram kimi xalqın əlindən tam şəkildə ala bilməsə də, onu milli dövlətçiliyin ifadəsi olan bayram olmaqdan çıxardı və buna cəhd edənlərin hamısını qanlı repressiyalara məruz qoydu.

Novruz bayramının etnokulturoloji və etnopsixoloji mahiyyəti "Sovet ideologiyasının Novruz bayramını xalqın yaddaşından tam şəkildə silməyə, bu bayramı yox etməyə nəyə görə, hansı səbəblərdən gücü çatmadı?" sualı ilə bağlıdır. Novruzun etnokulturoloji gücünə tam şəkildə qalib gələ bilməyən sovet ideoloqları onun, heç olmasa, məhəlli səviyyədə qeyd olunan "xalq adət-ənənəsi" şəklində yaşamasına dözməli oldular.

C.Qasımov yazır: "1920-ci illərin axırı və 30-cu illərin əvvəllərində min illərlə xalqın yaddaşında kök salmış "Novruz" bayramı da din pərdəsi altında yasaq edilsə də, illər boyu küçə və meydanlarda böyük ruh yüksəkliyi ilə keçirilən bu milli bayramı xalq artıq gizli olaraq, qapalı şəraitdə, lokal bir məkanda – evində keçirməyə başladı. Bunu bilən dövlət məmurları evlərdə də bu tədbirin keçirilməsini qadağan etdi. Bütün qadağalara, təqib və təzyiqlərə baxmayaraq, xalq əcdaddan transfer edilən bu bayramın unudulmasına imkan vermədi, onu qoruyub saxlaya bildi. Başqa sözlə, nə bolşevik təbliğatı, nə də hüquq-mühafizə orqanlarının gördüyü tədbirlər illərlə gendə köklənmiş "Novruz"u yaddaşlardan birdəfəlik silə bilmədi, sadəcə, bu bayramın məkanı daraldı, küçədən, meydandan çıxaraq, evlərə, ürəklərə daxil oldu" [2, s. 19-20].

C.Qasımov söz gedən məqaləndə bizim tədqiqatımıza bilavasitə dəxli olan "Qanlı repressiya üsulları ilə işləyən, milli düşüncənin ən xırda təzahürlərinə görə insanları divara söykəyib güllələyən sovet-bolşevik ideologiyasının Novruz bayramı ilə mübarizədə, əslində, məğlub olmasının səbəbi nə idi?" [2, s. 20] sualına aydınlıq gətirir.

Müəllif bu sualın cavabını "Novruz" arxetipinin xalqın düşüncəsinin ən dərin qatlarında axtarır. O yazır: "1930-cu illərin sərt qadağaları, zorakı sistem "Novruz"un meydan mərasimlərini müvəqqəti zaman kəsiyində sıradan çıxarsa da, bu milli bayramı bütövlükdə yaddaşdan silə bilmədi. Əslində, bu, mümkün də deyildi. Novruz bayramı xalqın qan-gen yaddaşı ilə bağlıdır. Bu bayram tarixən türk etnosunun təşəkkül və formalaşma prosesinin zəruri ünsürü, əsas tərkib materiallarından biri olduğu üçün bir xalq olaraq ümumtürk-oğuz kütləsindən diferensiasiya edən Azərbaycan xalqının etnopsixoloji yaddaşının üzvi elementidir. Başqa sözlə, Novruz qədim Azərbaycan türkünün yaddaşına kənardan gətirilməmiş, etnosun fiziki-psixoloji təcrübəsinin içindən inkişaf edərək mentalitet sisteminin zəruri, ayrılmaz struktur səviyyəsinə çevrilmişdir" [2, s. 14].

yaxud mədəniyyətimizə kənardan (irandilli xalqlardan) daxil olması haqqında mübahisələrlə qarşılaşırıq. Bizcə, C.Qasımovun Novruzun Azərbaycan etnosunun fiziki-psixoloji təcrübəsinin içindən inkişaf edərək mentalitet sisteminin zəruri, ayrılmaz struktur səviyyəsinə çevrilməsi haqqındakı fikri bu mübahisələrdə nəzərə alınmalı olan çox ciddi konseptdir. Əlbəttə, öz tədqiqatlarında elmi obyektivliyin sərhədlərini dəqiq şəkildə qoruyan C.Qasımov bu fikri ilə Novruz bayramının digər xalqlara da aidliyini qətiyyən inkar etmir. Məsələnin etnokulturoloji mahiyyəti tamamilə başqa cürdür. Prof C.Qasımov öz tədqiqatında Novruz bayramının milli düşüncə sistemində, etnokultuoloji yaddaşda, etnopsixoloji dəyərlər sistemində niyə bu qədər dərin köklər saldığını təhlil etmişdir. Müəllifin təhlili, əslində, Novruz bayramının bir təqvim bayramı olması konsepti üzərində qurulmuşdur.

Əlbəttə, bizim bu fikrimizə anındaca etiraz oluna bilər ki, Novruz bayramının təqvim bayramı olması haqqında hamının bildiyi məlumat niyə yeni bir konsept olsun ki? Məsələ də elə bununla, başqa sözlə, C.Qasımovun Novruzun təqvim bayramı olması haqqındakı ümumi bir bilgini elmi konseptə çevirə bilməsi ilə bağlıdır.

C.Qasımovun Novruz bayramına yanaşmasına görə, ortaq coğrafiyada yaşayan xalqların hamısının yazın gəlməsi haqqında mifoloji təsəvvürləri, demək olar ki, üst-üstə düşür. Ortaq coğrafiya ortaq təbii şərait və bundan irəli gələn ortaq təqvim görüşləri deməkdir. Həmin görüşlər başdan-başa mifoloji təsəvvürlərə əsaslanır. Bu təsəvvürlər məzmun baxımından qış və yazı təmsil edən obrazlar arasında mübarizəni əks etdirir. C.Qasımova görə, ortaq coğrafiyada yaşayan bütün xalqların yazın gəlişi, qışın gedişi ilə bağlı özlərinə məxsus mifik təsəvvürləri olmuşdur. Sonradan bu ortaq təsəvvürlər Novruz bayramında birbirinə qovuşaraq nəhəng bir təqvim mərasimi kompleksinə çevrilmişdir. Bu yanaşmanı o fakt ciddi şəkildə təsdiq edir ki, ortaq bir coğrafiyada Novruz bayramını qeyd edən xalqların keçirdiyi bu mərasimdə ortaq, üst-üst düşən, hamı üçün eyni olan cəhətlər olduğu kimi, bir-birini təkrarlamayan milli cəhətlər də vardır. Novruz bayramını hər bir xalq, o cümlədən Azərbaycan xalqı üçün milli, doğma edən də elə bu təkrarolunmaz cəhətlərdir. Başqa sözlə, ortaq Novruz coğrafiyasında yaşayan heç bir xalq hökm verə bilməz ki, bu bayram yalnız ona məxsusdur. Məsələn, Azərbaycan Novruz bayramında o qədər məhəlli inanc, adət-ənənə vardır ki, həmin ənənələr digər xalqların Novruz ənənələrində yoxdur. Yəni Novruz bayramı (mərasim kompleksi) onu qeyd edən Şərq xalqlarının hər birinin, o cümlədən böyük ölçüdə Azərbaycan xalqının töhfəsi ilə yaranmış nəhəng mədəniyyət hadisəsidir.

C.Qasımov bayramının etnopsixoloji mahiyyəti ilə bağlı bir sıra ciddi elmi fikirlər söyləmişdir. Həmin fikirlər Novruz bayramının etnokulturoloji mahiyyəti baxımından əhəmiyyət kəsb etdiyi üçün onları burada geniş şəkildə təhlil etməyi məqsədəuyğun hesab edirik.

Alimə görə: "Novruz, sadəcə olaraq, bir bayram yox, Azərbaycan xalqının ritual-mifoloji yaddaşının funksional formulu, mifik-kosmoloji düşüncə ilə yaşayan türk etnosunun gerçəkliyə münasibətinin etnopsixoloji mexanizmidir" [2, , s. 20]. C.Qasımovun bu fikrindən aşağıdakı qənaətləri hasilə gətirmək mümkündür:

a) Novruzun milli mədəniyyət sistemində rolu sadəcə bir bayram olmaqla bitmir. Burada daha dərin məsələlər vardır.

b) Müəllif Novruzu "Azərbaycan xalqının ritual-mifoloji yaddaşının funksional formulu" adlandırır. "Funksonal formul" bir termin kimi birbaşa milli şüurun funksiyası, dinamik xüsusiyyətləri ilə bağlıdır. Yəni buradan aydın olur ki, Novruz bayramı sadəcə olaraq təqvimin müəyyən bir kəsimində qeyd olunan kütləvi mədəniyyət hadisəsi yox, xalqın şüurunda daim hərəkətdə olan düşüncə mexanizmidir. Başqa sözlə, Novruz özünü bayramdan bayrama göstərən, yaxud insanların yadına bayramdan-bayrama düşən hadisə yox, xalqın şüurunda özünü fasiləsiz şəkildə göstərən etnokulturoloji fenomendir. Əlbəttə, bu, o demək deyildir ki, insanlar hər zaman, yay-qış, gecə-gündüz ancaq Novruz haqqında fikirləşmişlər. Yox, məsələnin qoyuluşu bu qədər primitiv deyildir. Məsələnin mahiyyəti Novruzun möhtəşəm təqvim hadisəsi kimi xalq təqviminin digər əlamətdar (mənadaşıyıcı) hadisələri ilə sıx bağlı olması ilə şərtlənir. Yəni Novruz xalqın zaman düşüncəsinin hakim formuludur. Qışdan çıxıb yazı-yazı tarlada, əkin-biçin sahələrində çalışan, mal-heyvan bəsləyən ənənəvi Azərbaycan insanının il anlayışı Novruzla başlanıb Novruzla tamamlanırdı. Onun həyat ritmi Novruzda öz əksini tapan humanitar-ekoloji ideyalarla müəyyənləşirdi. Novruzla yeni ilin ritmini başlayan ənənəvi azərbaycanlı növbəti Novruza qədər onun qarşısında bir ata, bir ana, bir ağsaqqal, bir ağbirçək və s. kimi duran vəzifələrin hamısının öhdəsindən gəlməli idi ki, yeni Novruzu üzüağ qarşılaya bilsin. Özünü yeni Novruza qədər maddi və mənəvi baxımdan salamat çatdırmaq, yeni Novruzu qarşılamaq hər bir ənənəvi azərbaycanlının həyatının mənası idi. Bu cəhətdən, C.Qasımovun Novruzu "Azərbaycan xalqının ritual-mifoloji yaddaşının funksional formulu" adlandırması azərbaycanlı milli şüurunun tarixi etnokulturoloji reallığını ifadə edir.

c) Müəllifin Novruzu "mifik-kosmoloji düşüncə ilə yaşayan türk etnosunun gerçəkliyə münasibətinin etnopsixoloji mexanizmi adlandırması" da elə yuxarıda söylədiyimiz mənaları əks etdirir.

*(Davamı var)*



*Şakir ALBALIYEV,*
*AMEA Folklor İnstitutu,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent,*
*albaliyevshakir@gmail.com*

---

Bizcə, C.Qasımovun bu fikri Novruz bayramının etnokulturoloji semantikası, yəni etnik mədəniyyət sistemində yeri, rolu və funksiyasının üzərinə gur işıq salır. Novruzun etnokulturoloji gücü, heç şübhəsiz ki, onun etnopsixoloji düşüncə sistemində tutduğu yerin möhkəm olması, Novruz arxetipinin milli şüurda sağlam, bütöv, möhkəm etnopsixoloji məna platformasına malik olması ilə müəyyənləşir. Bu da Novruz bayramının milli yaddaş sistemindəki tarixini, sözün hərfi mənasında, əbədiləşdirmişdir. Biz Novruzun milli ideologiyamızın mühüm tərkib hissəsinə çevrildiyi müasir milli şüurumuzdan onun tarixinə nəzər saldıqda görürük ki, Novruz milli şüur və etnokulturoloji sistemdə öz varlığını heç vaxt durdurmamış, daim bizim tariximizdə, mədəniyyətimizdə, həyatımızda və düşüncəmizdə var olmuşdur.

C.Qasımovun yuxarıdakı fikrində "ümumtürk-oğuz kütləsindən diferensiasiya edən Azərbaycan xalqının etnopsixoloji yaddaşına" da vurğu yapılmışdır. Müəllif bununla çox mühüm bir mətləbi diqqətə çatdırır və göstərir ki, Novruz Azərbaycan etnokulturoloji tarixinin epoxal hadisəsidir. O, iki epoxanı qabardır:

1. Azərbaycan xalqının ümumtürk-oğuz tarixi;
2. Azərbaycan xalqının ümumtürk-oğuz kütləsindən diferensiasiya etdikdən sonrakı tarixi.

Müəllifə görə, Novruz bu tarixlərin hər ikisində milli yaddaşın üzvi tərkib hissəsidir. Bu cəhətdən, C.Qasımovun yuxarıdakı fikrində Novruz bayramının Azərbaycan xalqının etnopsixoloji yaddaşına kənardan gətirilməməsi, "etnosun fiziki-psixoloji təcrübəsinin içindən inkişaf edərək mentalitet sisteminin zəruri, ayrılmaz struktur səviyyəsinə çevrilməsi" haqqındakı tezisi etnokulturoloji baxımdan xüsusi əhəmiyyət kəsb edən konsepsiyadır.

Məlumdur ki, Novruz təkcə Azərbaycan xalqı tərəfindən deyil, çox geniş etnik-mədəni coğrafiyada qeyd olunan bayramdır. Biz tez-tez bu bayramın Azərbaycan xalqının öz bayramı olması,